AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

THE POSITIVE IMPACT OF EARLY INTERVENTION ON FUNCTIONAL SKILLS AND LEARNING OUTCOMES IN THE TRANSITION FROM SPECIAL TO INCLUSIVE EDUCATION

Aydan Aliyeva[1]

UDC: 376.1−056.2/.3:373.2:615.851
LBC: 74.50:74.1
HoS: 149
doi: 10.33864/2790-0037.2026.v7.i1.293-303

Keywords:

Inclusive education, Early intervention, Sensory integration, Occupational therapy, Speech and language development, Psychological support

Subject area:

Humanitarian and Social Sciences

Research field:

Pedagogy

ABSTRACT

This article theoretically examines the significance of early intervention in the transition from special to inclusive education. It explores the principles of inclusive education, the interaction between special and inclusive education systems, and the role of early intervention in the development of children's functional, social, and academic skills. Sensory integration and occupational therapy are discussed as strategies to address sensory processing difficulties and organize daily activities. Furthermore, psychological and psycho-pedagogical support, play-based learning, parental involvement, and individualized education plans are highlighted as essential for children's social adaptation, speech and language development, motor skills, and cognitive growth. The article provides a theoretical overview and pedagogical recommendations, emphasizing the importance of a multidisciplinary approach in implementing early intervention within inclusive education.

[1] Associate Professor,
National Defense University; Baku, Azerbaijan
E-mail: aydane216@gmail.com
https://orcid.org/0009-0007-0222-0874
To cite this article: Aliyeva, A. [2026]. The Positive Impact of Early Intervention on Functional Skills and Learning Outcomes in the Transition from Special to Inclusive Education. *History of Science journal*, *7*(1), pp.293-303.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.293-303

Article history:
Received: 24.12.2025
Revised: 26.01.2026
Accepted: 01.03.2026
Published: 15.03.2026

Copyright: © 2026 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

XÜSUSİ TƏHSİLDƏN İNKLÜZİVLİYƏ KEÇİD PROSESİNDƏ ERKƏN MÜDAXİLƏNIN FUNKSİONAL BACARIQLARA VƏ TƏLİM NAİLİYYƏTLƏRİNƏ MÜSBƏT TƏSİRİ

Aydan Əliyeva[1]

UOT: 376.1−056.2/.3:373.2:615.851
KBT: 74.50:74.1
HoS: 149
doi: 10.33864/2790-0037.2026.v7.i1.293-303

Açar sözlər:

İnklüziv təhsil,
Erkən müdaxilə,
Sensor inteqrasiya,
Əmək terapiyası,
Nitq və dil inkişafı,
Psixoloji dəstək

Sahə:

İctimai və Humanitar elmlər

Tədqiqat sahəsi:

Pedaqogika

ANNOTASİYA

Bu məqalə xüsusi təhsildən inklüzivliyə keçid prosesində erkən müdaxilənin əhəmiyyətini nəzəri baxımdan təhlil edir. Məqalədə inklüziv təhsilin prinsipləri, xüsusi və inklüziv təhsil sistemlərinin qarşılıqlı əlaqəsi, uşaqların funksional, sosial və akademik bacarıqlarının inkişafında erkən müdaxilənin rolu araşdırılır. Sensor inteqrasiya və əmək terapiyası vasitəsilə duyusal işləmə problemləri və gündəlik fəaliyyətlərin təşkili izah olunur. Bundan əlavə, psixoloji və psixo-pedoqoji dəstəyin, oyun əsaslı öyrənmə metodlarının, valideyn iştirakının və fərdi təhsil planının uşaqların sosial adaptasiyası, nitq və dil bacarıqları, motor və koqnitiv inkişafı üçün vacib olduğu vurğulanır. Məqalə nəzəri baxış təqdim edərək pedaqoji praktikaya tövsiyələr verir və inklüziv təhsildə erkən müdaxilənin multidissiplinar yanaşma ilə tətbiqinin əhəmiyyətini ortaya qoyur.

[1] Dosent,
Milli Müdafiə Universiteti; Bakı, Azərbaycan
E-mail: aydane216@gmail.com
https://orcid.org/0009-0007-0222-0874
Məqaləyə istinad: Əliyeva, A. [2026]. Xüsusi Təhsildən İnklüzivliyə Keçid Prosesində Erkən Müdaxilənin Funksional Bacarıqlara və Təlim Nailiyyətlərinə Müsbət Təsiri. *History of Science jurnalı*, *7*(1), səh.293-303.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.293-303

Məqalənin tarixçəsi:
Daxil olub: 24.12.2025
Yenidən baxılıb: 26.01.2026
Təsdiqlənib: 01.03.2026
Dərc olunub: 15.03.2026

Copyright: © 2026 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

ПОЗИТИВНОЕ ВЛИЯНИЕ РАННЕГО ВМЕШАТЕЛЬСТВА НА ФУНКЦИОНАЛЬНЫЕ НАВЫКИ И УЧЕБНЫЕ ДОСТИЖЕНИЯ В ПРОЦЕССЕ ПЕРЕХОДА ОТ СПЕЦИАЛЬНОГО К ИНКЛЮЗИВНОМУ ОБРАЗОВАНИЮ

Айдан Алиева[1]

УДК: 376.1−056.2/.3:373.2:615.851
ББК: 74.50:74.1
HoS: 149
doi: 10.33864/2790-0037.2026.v7.i1.293-303

Ключевые слова:

Инклюзивное образование,
Раннее вмешательство,
Сенсорная интеграция,
Трудотерапия,
Развитие речи и языка,
Психологическая поддержка

Область исследования:

Гуманитарные и социальные науки

Научная область:

Педагогика

АННОТАЦИЯ

В статье теоретически анализируется значимость раннего вмешательства в процессе перехода от специального к инклюзивному образованию. Рассматриваются принципы инклюзивного образования, взаимосвязь систем специального и инклюзивного образования, а также роль раннего вмешательства в развитии функциональных, социальных и академических навыков детей. Обсуждаются сенсорная интеграция и трудотерапия как стратегии для решения проблем сенсорной переработки и организации повседневной деятельности. Кроме того, подчеркивается важность психологической и психолого-педагогической поддержки, обучения через игру, участия родителей и индивидуальных образовательных планов для социальной адаптации детей, развития речи и языка, моторики и когнитивных навыков. Статья представляет теоретический обзор и педагогические рекомендации, акцентируя внимание на важности мультидисциплинарного подхода при реализации раннего вмешательства в инклюзивном образовании.

[1] Доцент,
Университет национальной обороны; Баку, Азербайджан
E-mail: aydane216@gmail.com
https://orcid.org/0009-0007-0222-0874
Цитировать статью: Алиева, А. [2026]. Позитивное влияние раннего вмешательства на функциональные навыки и учебные достижения в процессе перехода от специального к инклюзивному образованию. *Журнал History of Science, 7*(1), с.293-303.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.293-303

История статьи:
Поступила: 24.12.2025
Переработана: 26.01.2026
Принята: 01.03.2026
Опубликована: 15.03.2026

Copyright: © 2026 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

1.Giriş

Təhsil bütün cəmiyyətlərin, xüsusilə demokratik cəmiyyətin ən zəruri komponentlərindən və sosial proseslərə təsir göstərən ən mühüm faktorlardandır. Çünki, təhsil bir tərəfdən qabaqcıl texnologiyaların mənimsənilməsinə kömək edir, digər tərəfdən isə dəyərlər sistemini formalaşdırır. Demokratik və humanist prinsiplərə söykənən təhsil isə dini, milli, cinsi, irqi, əqli və fiziki fərdliliklərindən asılı olmayaraq cəmiyyətin bütün üzvlərinə bərabərhüquqlu fərdlər kimi münasibət göstərir ki, bu da öz növbəsində cəmiyyətdə sosial bərabərliyin qorunmasına şərait yaradır. Çağdaş dünyamızda təhsil sferasında bu dəyərlər inkluziv təhsilin timsalında təzahür etməkdədir [Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, 2016, s.4].

Məlumdur ki, inkluziv təhsil xüsusi təhsilin üzərində qurulmuş, bütün uşaqların bərabər və əlçatan təhsil imkanlarının yaradılmasına yönəlmiş müasir və inovativ pedoqoji yanaşmadır. Dünyada inkluziv təhsil çox vaxt xüsutəhsilin bir növü kimi qəbul edilir və onun zəngin təcrübəsindən faydalanaraq daha səmərəli şəkildə tətbiq olunur. Bəzi ölkələrdə isə xüsusi və inkluziv təhsil sistemləri bir-biri ilə çox sıx bağlıdır.

Xüsusi təhsil xüsusi təhsil müəssisələrində, xüsusi təhsil bölmələrində, xüsusi şərait yaradılan ümumi təyinatlı təhsil müəssisələrində Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş formalarda həyata keçirilir [Təhsil Problemləri İnstitutu, 2018, s.5].

Şübhəsiz ki, inkluziv təhsil ideyasına qədər fiziki və əqli qüsurlu insanların təhsilə olan tələbatı təmin edilirdi. Bunun üçün müvafiq diaqnoz qoyulmuş uşaqlar aidiyyəti üzrə xüsusi təyinatlı məktəblərə cəlb olunurlar. Bu tipli məktəblər hələ də dünyanın bütün ölkələrində mövcuddur. Hətta xüsusi məktəblərdə qüsurlu insanlara daha müvafiq səriştəsi olan kadrlar tərəfindən keyfiyyətli təhsil verilir. Lakin bu tipli məktəblər insanın ən vacib ehtiyaclarından birini — insanlarla sosiallaşmaq ehtiyacını, cəmiyyətə inteqrasiya və adapatsiyasını təmin edə bilmirlər. Adətən institutlaşmış şəkildə fəaliyyət göstərən xüsusi məktəblər burda təhsil alanları qapalı mühitə "həbs edir" və marginallaşdırır. Nəticədə isə itirən onlar deyil, həm də bütün cəmiyyət olur. Çünki cəmiyyətin bütövlüyü pozulur [Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, 2016, s.102].

Şəkil 1.

İnklüziya müxtəlif əqli və fiziki bacarıqlı uşaqların, digər uşaqların da böyük məmnuniyyətlə iştirak etdikləri məktəb həyatının bütün aspektlərinə tam cəlb edilməsidir. Bu proses istisnasız olaraq, bütün uşaqların tələblərinin qarşılanması, müxtəlifliyin fərqləndirilməsi üçün məktəb şəraitinin real adaptasiyasını tələb edir. Lakin bu o demək deyil ki, inklüziyada ehtiyac duyularsa, müxtəlif əqli və fiziki bacarıqlı uşaqların sinif xaricində xüsusi dəstək və ya təlimi həyata keçirilməyəcək. Sadalananlar müxtəlif mümkün variantlardır. Qeyd etmək vacibdir ki, sinifdəki bütün uşaqların müəyyən dövrdən bir əlavə dərslərə ehtiyacı yarana bilər (Loreman və Deppeler, 2001) [Loreman et al., 2025, s.3].

Bu kimi dərslərin xüsusilə 0-6 yaş dövründə risk qrupunda olan uşaqlarla məqsədyönlü, sistemli və kompleks keçirilməsi isə erkən müdaxilənin xüsusi təhsildən inkluzivliyə keçid prosesində vacib əhəmiyyətini vurğulayır.

Beynəlxalq təcrübə göstərir ki, inklüziv təhsilin təməlini erkən müdaxilə təşkil edir. Erkən müdaxilə dedikdə, uşağın inkişafdan geri qalmasının mümkün qədər tez aşkarlanması, uşağa və onun ailəsinə erkən ixtisaslaşmış, psixoloji, tibbi, pedaqoji, sosial

yardımın göstərilməsi nəzərdə tutulur. Mümkün intellektual çatışmazlıqların aradan qaldırılması, yaxud fəsadların minimuma endirilməsi üçün müvafiq tibbi, psixoloji və pedaqoji tədbirlərin mümkün qədər erkən yaşlardan başlaması vacibdir. Uşaqlıq dövrü hər bir insanın inkişafında son dərəcə mühüm əhəmiyyət kəsb edir. Uşaqlıq dövrü mərhələsinin insanın digər inkişaf mərhələlərinə nisbətən daha tez ötüb keçməsinə baxmayaraq, sonrakı mərhələlərin inkişaf sürətini və istiqamətini müəyyənləşdirir. Bu dövr insanın bir şəxsiyyət kimi təşəkkül tapması, sosial-mədəni dəyərləri mənimsəməsi baxımından da əhəmiyyətlidir. Bu mərhələ intellektual problemli uşaqlar üçün xüsusi əhəmiyyətlidir. İnsan beyni üzərində aparılan elmi tədqiqatlar göstərir ki, 0–6 yaş arası dövr insanın ən sürətlə inkişaf etdiyi, ən vacib həyati bacarıqlara yiyələndiyi dövrdür. Bu dövrdə fiziki və intellektual inkişaf problemlərinə lazımi müdaxilə olunmasa, onlar daha ciddi fəsadlar törədə bilər [Süleymanov, 2015, s.68].

Uğurlu erkən müdaxilə proqramları nitq-dil mütəxəssisləri, əmək terapiyası mütəxəssisləri, psixoloqlar, müəllimlər və pediatrlar arasında əməkdaşlığa xüsusi önəm verir [Kahramanova, 2025, s.475].

2.Duyusal sistem, Sensor inteqrasiya və Əmək terapiyası

Duyular insanın ətraf mühitlə qarşılıqlı əlaqəsini yaradan neyrofizioloji mexanizlər sistemidir. Bu sistemlər xarici və daxili mühitdən gələn siqnalları qəbul edərək mərkəzi sinir sisteminə ötürür, orda emal edir və sensor inteqrasiya vasitəsilə müvafiq davranış reaksiyalarının formalaşdırılmasını təmin edir.

İnsanlarda adətən beş duyunun mövcudluğundan bəhs olunsa da, duyusal sistemin təsnifatında yeddi fərqli sistem nəzərə alınır:

- Vestibulyar duyu (tarazlıq və hərəkət duyğusu)
- Proprioseptiv duyu (dərin duyğu)
- Taktil duyu (toxunma duyğusu)
- Dad duyusu
- Qoxu duyusu
- Görmə duyusu
- Eşitmə duyusu [Özyazıcı, 2021, s.211].

Bu duyusal sistemlər uşaqların inkişafında motor bacarıqların, koqnitiv funksiyaların, emosional tənzimləmənin və sosial adaptasiyanın yaranmasına birbaşa təsir göstərir. Bu sistemlərin pozulması uşaq inkişafının müxtəlif sahələrində çətinliklər yarada bilər.

Vestibulyar və proprioseptiv duyu sistemlərin disfunksiyası uşaqlarda müvazinət, koordinasiya və fiziki aktivlik problemləri yaradır ki, bu həm boyük (qaçmaq, tullanmaq, sürünmək və s.), həm də kiçik motor fəaliyyətlərinin (qələm tutmaq, muncuq düzmək, düymə keçirmək, qaşıq/çəngə ilə yemək və s.) pozulması ilə müşahidə olunur.

Şəkil 2.

Görmə, eşitmə, proprioseptiv, taktil və həmçinin vestilbulyar duyu sistemlərinin disfunksiyası və sensor inteqrasiya problemləri uşaqda yaddaş, diqqət və konsentrasiya pozuntuları, məntiqi düşüncə çatışmazlığı və inkişafı koordinasiya pozuntusu yaradır, bu da öz növbəsində öyrənmə çətinliklərinə və akademik nailiyyətlərin zəiflənməsinə gətirib çıxarır. Bu duyusal sistemlərin pozulması həmçinin uşağın cəmiyyətə adaptasiyasına da mənfi təsir edir, uşağın sosial bacarıqlarının inkişafının qarşısını alır və ünsiyyət bacarıqlarını məhdudlaşdırır.

Dad, qoxu, taktil, vestibulyar duyu sistemlərinin disfunksiyası uşaqların şəxsi gigiyena, qidalanma, geyim kimi gündəlik fəaliyyətlərini yerinə yetirməsində çətinliklər yaradır ki bu da emosional, toxunsal, dad və qoxu həssazlığını artırır, qida seçiciliyinə səbəb olur.

Sensor inteqrasiya yanaşması ilə əmək terapiyası (OT/SI) gündəlik həyat fəaliyyətlərində iştirakını məhdudlaşdıran, duyusal məlumatların emalında ciddi çətinlik çəkən uşaqlar üçün müdaxiləni istiqamətləndirmək məqsədilə hazırlanmışdır. Bu nəzəriyyə təhsil psixologiyası və neyrobiologiya sahələrində postdoktoral təlim keçmiş əmək terapevti A. Jean Ayres (Ayres, 1972, 1979, 1989) tərəfindən hazırlanmışdır [Schaaf & Miller, 2005, s.143]. Əmək terapevti (OT) uşaqların ehtiyaclarını yeddi sahədə müəyyənləşdirmək və qiymətləndirməkdə məsuliyyət daşıyır (Associação Portuguesa de Terapeutas Ocupacionais, n.d.):

Şəkil 3.

- Gündəlik həyat bacarıqlarını təşviq edərək müstəqilliyi artırmaq;
- Koqnitiv bacarıqları stimullaşdırmaq (yaddaş, diqqət, konsentrasiya, problem həll etmə və s.);
- Motor bacarıqları təşviq etmək (əzələ, hərəkət, koordinasiya, balans, incə motor bacarıqları, çeviklik və s.);
- Duyu inteqrasiyası;
- Psixo-sosial bacarıqların inkişafını təşviq etmək;
- Ətraf mühitin uyğunlaşdırılması (memarlıq maneələri) və texniki vasitələrdən istifadə;
- Dəstək məhsullarının məsləhəti, hazırlanması və istifadəsi.

Bu müxtəlif məsuliyyətlərə əsasən və erkən müdaxilə (EI) çərçivəsində, bir OT 0–6 yaş arası uşağın ailəsi, dostları və məktəbə hazırlıq mühitləri ilə qarşılıqlı əlaqədə olmasını təmin edə biləcək şərait yarada bilər [Hunt, 2021, s.97].

Müşahidələr göstərir ki, sosial mühitə uyğunlaşmama ilə yanaşı, dad, qoxu və toxunma həssaslığı kiçik yaşlı uşaqlarda ən çox müşahidə edilən duyusal disfunksiyalardır.

Şəkil 4.

Nitq pozuntuları, diqqət əksikliyi və hiperaktiv pozuntu (DƏHP), autizm spektr pozuntusu (ASP), serebral iflic və nöbet pozuntuları olan uşaqlar üzərində aparılan bir tədqiqatda, autistik uşaqlarda duyusal işləmə problemlərinin daha yüksək olduğu və bu

uşaqların fərqli dad və istilik stimuluna davamlı şəkildə məruz qalması nəticəsində qidalanma problemlərinin zamanla azalmasının mümkün olduğu müəyyən edilmişdir. Nöroloji xəstəliklərin müşahidə olunduğu digər inkişaf geriliyi göstərən uşaqlarda da qida fobiyası ilə duyusal həssaslıq arasında mühüm əlaqələr tapılmışdır. Dad və qoxu həssaslığı yüksək olan uşaqlarda, inkişaf geriliyi olan uşaqlara oxşar şəkildə meyvə və tərəvəz istehlakı ilə mənfi korrelyasiya müşahidə edilmişdir. Toxunma həssaslığı olan uşaqlarda isə qusma refleksi daha yüksəkdir və fərqli dad, qoxu və istiliyə malik qidaları sınama təcrübələri məhduddur. Uşaqların inkişaf prosesi boyunca müxtəlif toxu, dad və istiliklərə malik qidalara davamlı şəkildə məruz qalması, duyusal qidalanma problemlərinin azalmasına töhfə verən effektiv bir müdaxilə strategiyası kimi qiymətləndirilir [Koç et al., 2024, s.711].

3.Psixoloji və Psixo-pedoqoji dəstək

Psixologiya və psixopedoqogika uşaqların inkişaf və öyrənmə çətinliklərini aradan qaldırmağa yönəlmiş multidissiplinar sahələrdir. Psixoloji dəstək uşağın emosional, və davranış inkişafına yönəlir. Psixo-pedaqoqoji dəstək zamanı isə uşağın koqnitiv və sosial bacarıqları inkişaf etdirilir, uşağın cəmiyyətə və tədris mühitinə uyğunlaşması asanlaşır. Hər iki proses həm valideyni, həm uşağı əhatə edir. Psixoloq uşaqda təhlil qabiliyyətinin yaranmasına kömək edir, uşaq ətraf -mühiti anlamağa, gördüklərini eyniləşdirməyə və ya fərqləndirməyə, situasiyaları analiz etməyə başlayır. Psixo-pedaqoq isə təhlil bacarığını inkişaf etdirərək praktik fəaliyyətə yönəldir. Göründüyü kimi hər iki sahənin mütəxəssislərinin işi qarşılıqlı və tamamlayıcıdır.

Şəkil 5.

Erkən müdaxilə istiqamətində psixoloji və psixo-pedoqoji dəstək bir neçə istiqamətdə həyata keçirilir:

3.1.Fərdi və kiçik qrup məşğələləri

Bu prosesdə uşağın emosional zəka, koqnitiv və dil inkişafı üçün dəstək verilir, eləcə də böyük və kiçik motor bacarıqları məqsədyönlü şəkildə inkişaf etdirilir. Kiçik qrup mühitində uşağın sosial əlaqə və əməkdaşlıq bacarıqlarının formalaşdırılması üçün əlverişli şərait yaranır ki, bu da uşağın cəmiyyətə inteqrasiyasına müvafiq imkanlar yaradır.

3.2.Oyun əsaslı öyrənmə

Oyunlaşdırma və oyun əsaslı öyrənmə erkən uşaqlıq dövründə aparıcı fəaliyyət növü olduğu üçün təlimin əsas komponenti kimi qəbul edilir. Oyun uşağın öyrənmə prosesini təbii şəkildə stimullaşdırır, təlim motivasiyasını artırır və emosianal təhlükəsizliyini gücləndirir. Nəticədə əylənərək öyrənmək uşaq üçün daha cəlbedici və yadda qalan olur.

3.3.Təbii mühitdə öyrənmə

Bu metod uşağın real həyat şəraitində gündəlik fəaliyyətlər cəlb edilməsini nəzərdə tutur. Təbii mühit uşağın sosial və emosinal adaptasiyası və davranış korreksiyası üçün ən lazımlı şəraitdir. Bu zaman uşağın fuksional və kommunikasiya bacarıqları inkişaf edir, təfəkkür formalaşır.

3.4.Valideyn iştirakı və məşq təlimatları

Bu yanaşma uşaqda mütəxəssis dəstəyi ilə formalaşdırılan bacarıqların valideyn vasitəsilə idarə olunmasını, müdaxilə və inteqrasiyanın davamlılığını təmin edir. Valideynlərə ev mühitində uşağın inkişaf ehtiyaclarına uyğun aparıla biləcək məşqlər öyrədilir ki, bu da onları təlim prosesinin aktiv iştirakçısına çevirir.

3.5.Fərdi Təhsil Planı

Fərdi təhsil planı uşağın bütün inkişaf sahələri (koqnitiv, sosio-emosional, dil, motor və adaptiv funksiyaları) üzrə güclü və zəif tərəflərini sistemli şəkildə qiymətləndirərək, konkret nəticələrə əsaslanan məqsədyönlü, fərdiləşdirilmiş və fuksional tədris prosesi təşkil edir. Bu plan çərçivəsində tətbiq olunan metod və strategiyaların səmərəliliyi davamlı şəkildə izlənilir, uşağın inkişaf göstəriciləri qiymətləndirilir, ehtiyac yaranarsa planda müvafiq dəyişiklik edilir.

Bundan əlavə, valideynlər uşaqlarının uyğunluq qiymətləndirilməsində iştirak edə, uşağın fuksional, inkişaf və təhsil göstəriciləri haqqında məlumat təqdim etməklə uşağın gecikmə və ya əlilliyinin müəyyənləşdirilməsinə və Fərdi Təhsil Planının məzmunun hazırlanmasına töhfə verə bilərlər [Guralnick & Bruder, 2019, s.725].

4.Loqopedik dəstək və nitq terapiyaları

Şəkil 6.

Loqopedik dəstək və nitq terapiyaları uşaqda nitq pozuntuları və ya gecikməsi, ünsiyyət çətinliyi aşkar olunduqda inkişaf və korreksiyaya istiqamətlənmiş sistemli və məqsədyönlü həyata keçirilən tədbirlər kompleksidir.

Erkən terapiya müxtəlif yanaşmaları əhatə edə bilər:

4.1.Fərdi Terapiya Seansları:

Bunlar strukturlaşdırılmış seanslardır və burada nitq-dil mütəxəssisi (SLP) məqsədyönlü fəaliyyətlər vasitəsilə uşaqla birlikdə nitq səsləri, dili anlama, cümlə qurma və praqmatik bacarıqlar üzərində işləyir.

4.2.Valideyn Təlimi və İştirakı:

Valideynlər terapiyada öyrənilən bacarıqların möhkəmləndirilməsində əsas rol oynayırlar.

Valideynlərin effektiv ünsiyyət strategiyalarından istifadə etməyə və uşaqları ilə mənalı qarşılıqlı əlaqə qurmağa öyrədilməsi bacarıqların gündəlik həyata tətbiqini gücləndirir.

4.3.Dəstəkləyici texnalogiyalar:

Ağır nitq pozuntuları olan uşaqlar üçün şəkilli lövhələr, nitq yaradan cihazlar və ya xüsusi tətbiqlər kimi alternativ və dəstəkləyici ünsiyyət (AAC) vasitələri funksional ünsiyyəti təmin edən mühüm dəstək rolunu oynayır.

4.4.Oyun Əsaslı və Təbii Yanaşmalar:

Oyun və təbii mühitlə inteqrasiya olunmuş terapiya uşaqları spontan ünsiyyətə təşviq edir, terapiyanı daha maraqlı və situasiyaya uyğun edir.

Bu yanaşma motivasiyanı və bacarıqların uzunmüddətli yadda qalmasını dəstəkləyir [Kahramanova, 2025, s.474].

4.5.Tələffüz Terapiyası:

Təkrar məşqlər və motor planlaşdırma tapşırıqları vasitəsilə nitq səslərinin aydınlığının yaxşılaşdırılmasına yönəlir.

4.6.Dil Bacarıqlarının İnkişafını Dəstəkləyən Texnikalar:

Model göstərmə, yenidən ifadə etmə (recasting) və genişləndirmə strategiyaları vasitəsilə söz ehtiyatının, cümlə quruluşunun və anlama bacarığının inkişafına yönəlir.

4.7.Sosial Ünsiyyət Terapiyası:

Effektiv sosial qarşılıqlı əlaqə üçün vacib olan praqmatik dil bacarıqlarını — növbə ilə danışma, göz təması və qeyri-verbal siqnalları anlama kimi bacarıqları — inkişaf etdirir.

Klinik mühitdən kənarda da ünsiyyət bacarıqlarını möhkəmləndirmək üçün valideynlərin və baxıcıların iştirakı həyati əhəmiyyət daşıyır.

Təlim proqramları ailələrə reaktiv dinləmə, sadələşdirilmiş dildən istifadə və birgə diqqətin təşviqi kimi üsulları öyrədir.

Daimi iştirak dil bacarıqlarının ümumiləşdirilməsini təşviq edir və öyrənməyə əlverişli dəstəkləyici ev mühiti yaradır.

Alternativ və dəstəkləyici ünsiyyət (AAC) sistemləri ağır nitq pozuntuları olan uşaqlara ehtiyaclarını ifadə etməyə, sosial fəaliyyətlərdə iştirak etməyə və məyusluğu azaltmağa imkan verir.

Buna nitq yaradan cihazlar, simvol əsaslı mobil tətbiqlər və qeyri-verbal uşaqlar üçün göz izləmə texnologiyaları daxildir.

Telepraktika (uzaqdan terapiya) xidmətləri ucqar və ya az təmin olunmuş əhaliyə çatdıraraq terapiyanın davamlılığını və əlçatanlığını təmin edir [Kahramanova, 2025, s.475].

5.Nəticə

Xüsusi təhsildən inklüzivliyə keçid prosesində erkən müdaxilə uşaqların funksional, sosial və akademik inkişafı üçün əsas rol oynayır. Erkən müdaxilə proqramları, xüsusən 0–6 yaş arası dövrdə, uşaqların motor, koqnitiv, nitq-dil və sosial bacarıqlarının inkişafını dəstəkləyir, onların məktəb və cəmiyyət mühitinə uyğunlaşmasını asanlaşdırır. Sensor inteqrasiya və əmək terapiyası, psixoloji və psixo-pedoqoji dəstək, oyun əsaslı öyrənmə və valideyn iştirakı kimi multidissiplinar yanaşmalar uşaqların gündəlik fəaliyyətlərdə müstəqilliyini artırır, duyusal problemlərin və nitq pozuntularının azaldılmasına kömək edir.

Nəticə etibarilə, inklüziv təhsil yalnız hüquqi və institusional dəyişikliklərlə deyil, erkən və sistemli müdaxilə ilə dəstəklənməli, fərdi təhsil planları və multidissiplinar əməkdaşlıq vasitəsilə hər bir uşağın inkişaf potensialı maksimum dərəcədə təmin edilməlidir. Bu yanaşma həm fərdi inkişaf, həm də cəmiyyətin sosial inkluzivliyinin gücləndirilməsinə xidmət edir.

6.REFERENCES

1. Azerbaijan Republic Institute of Education Problems. (2016). *Education and training of children with special psychophysical development*. Baku: Tuncay 12 MMC. Azerbaijan National Library. Retrieved from http://web2.anl.az:81/read/page.php?bibid=vtls000516075 (in Azerbaijani)

2. Institute of Education Problems. (2018). *Organization of teaching in inclusive classrooms*. Baku. Retrieved from https://www.tipii.edu.az/noduploads/document/8588_oxu-materiali-inkluziv-tahsil.pdf (in Azerbaijani)

3. Loreman, T., Deppeler, J., & Harvey, D. (2025). *Inclusive education: Practical guidelines for supporting diversity in the classroom* (N. T. Huseynova, Ed.; L. Orucova, Trans.). Azerbaijan State Pedagogical University. Retrieved from

https://adpuagcabedi.edu.az/wp-content/uploads/2025/10/64.-N.-Huseynova.-Inkluziv-t%C9%99hsil-pdf.pdf (in Azerbaijani)

4. Suleymanov, F. (2015). Early intervention as the first stage of inclusive education. *Preschool and General Education Journal (PPE Journal)*, (4), 68–70. Retrieved from https://ppe-journal.edu.az/frontend/uploads/files/jurnal%202015%2C%20%E2%84%96%204.pdf (in Azerbaijani)
5. Kahramanova, Z. R. (2025). The role of early intervention in speech and language disorders. *Journal of Applied Science and Social Science*, *15*(8), 473–476. Retrieved from https://www.internationaljournal.co.in/index.php/jasass/article/view/1651/1839 (in English)
6. Ozyazici, K., Boga, E., Alagoz, N., Varliklioz, K., Arslan, Z., Akto, S., & Saglam, M. (2021). Development of senses and sensory integration. *Development and Psychology Journal*, *2*(4), 209–226. https://doi.org/10.51503/gpd.879070 (in Turkish)
7. Schaaf, R. C., & Miller, L. J. (2005). Occupational therapy using a sensory integrative approach for children with developmental disabilities. *Mental Retardation and Developmental Disabilities Research Reviews*, *11*(2), 143–148. https://doi.org/10.1002/mrdd.20067 (in English)
8. Hunt, P. F. (2021). Inclusive education: The case for early identification and early intervention in assistive technology. *Assistive Technology*, *33*(sup1), S94–S101. https://doi.org/10.1080/10400435.2021.1974122 (in English)
9. Koch, N., Kilich, F., & Eroghlu, F. E. (2024). The effect of sensory processing disorders on feeding behavior in children with neurodevelopmental disorders: A mini review. *Bingol University Health Journal*, *5*(3), 707–716. https://doi.org/10.58605/bingolsaglik.1494912 (in Turkish)
10. Guralnick, M. J., & Bruder, M. B. (2019). Early intervention. In J. L. Matson (Ed.), *Handbook of intellectual disabilities: Integrating theory, research, and practice* (pp.717–742). Springer International Publishing. https://doi.org/10.1007/978-3-030-20843-1_39 (in English)

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. (2016). *Xüsusi psixofiziki inkişafa malik uşaqların tərbiyə və təlimi*. Bakı: Tuncay 12 MMC. Azərbaycan Milli Kitabxanası. Retrieved from http://web2.anl.az:81/read/page.php?bibid=vtls000516075
2. Təhsil Problemləri İnstitutu. (2018). *İnklüziv siniflərdə təlimin təşkili*. Bakı. Retrieved from https://www.tipii.edu.az/noduploads/document/8588_oxu-materiali-inkluziv-tahsil.pdf
3. Loreman, Tim., Deppeler, J., & Harvey, D. (2025). *İnklüziv təhsil: Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar* (Red. Hüseynova, N. T.; Tərc. Orucova, L.). Azərbaycan Dövlət Pedaqoji Universiteti. Retrieved from https://adpuagcabedi.edu.az/wp-content/uploads/2025/10/64.-N.-Huseynova.-Inkluziv-t%C9%99hsil-pdf.pdf
4. Süleymanov, F. (2015). Erkən müdaxilə inklüziv təhsilin ilk pilləsi kimi. *Məktəbəqədər və Ümumi Təhsil Jurnalı (PPE Jurnalı)*, (4), 68–70. Retrieved from https://ppe-journal.edu.az/frontend/uploads/files/jurnal%202015%2C%20%E2%84%96%204.pdf
5. Kahramanova, Z. R. (2025). The Role of Early Intervention in Speech and Language Disorders. *Journal of Applied Science and Social Science*, *15*(8), 473–476. Retrieved from https://www.internationaljournal.co.in/index.php/jasass/article/view/1651/1839

6. Özyazıcı, K., Boğa, E., Alagöz, N., Varlıklıöz, K., Arslan, Z., Akto, S., & Sağlam, M. (2021). Duyuların Gelişimi ve Duyu Bütünleme. *Gelişim ve Psikoloji Dergisi*, *2*(4), 209–226. https://doi.org/10.51503/gpd.879070

7. Schaaf, R. C., & Miller, L. J. (2005). Occupational therapy using a sensory integrative approach for children with developmental disabilities. *Mental Retardation and Developmental Disabilities Research Reviews*, *11*(2), 143–148. https://doi.org/10.1002/mrdd.20067

8. Hunt, P. F. (2021). Inclusive education: The case for early identification and early intervention in assistive technology. *Assistive Technology*, *33*(sup1), S94–S101. https://doi.org/10.1080/10400435.2021.1974122

9. Koç, N., Kılıç, F., & Eroğlu, F. E. (2024). Nörogelişimsel Hastalığı Olan Çocuklarda Duyusal İşlem Bozukluklarının Beslenme Davranışına Etkisi: Mini Bir Derleme. *Bingöl Üniversitesi Sağlık Dergisi*, *5*(3), 707–716. https://doi.org/10.58605/bingolsaglik.1494912

10. Guralnick, M. J., & Bruder, M. B. (2019). Early Intervention. In J. L. Matson (Red.), *Handbook of Intellectual Disabilities: Integrating Theory, Research, and Practice* (s.717–742). Springer International Publishing. https://doi.org/10.1007/978-3-030-20843-1_39